# HƏKİM FƏDAKARLIĞI VƏ YAZIÇI HƏKİMLİYİ

## *Yazıçı-publisist Ulduz Qasımın "Doktor Meşali" romanında insana sevginin tərənnümü*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Bəşər nəsli, həyat uğrunda mübarizədə, yaşarlığı təmin edən çox vasitələri kəşf edib, yaradıb. Mağaradan çıxan insan göydələnlər yaradır, həyat nemətlərini, daha çox və daha asan istehsal etmək üçün hər vaxt öz təcrübəsini yeniləşdirir, bilgisini artırır. Demək, insanı qorumaq, onu yaşatmaq üçün təbabətin inkişafıda əsas şərt olaraq qalır. Təəssüf ki, cəmiyyətdə sosial ədalətin düzgün təmin olunmaması, insanlar arasında münasibətlərə də təsir göstərir. Bir çox hallarda əhalinin kasıb təbəqəsi əziyyət çəkir adi səhiyyə imkanlarından məhrum olur. Təhsilə yiyələnə bilməyən uşaqlar ucuz işçi qüvvəsinə çevrilir. Bütün bunları niyə sadalayıram? Cəmiyyətdə sosial ədalətin bərpa olunması naminə maarifçilər, o cümlədən, yazıçılar da az iş görmür. Biz, ayrı-ayrı sənətkarların əsərlərini mütailə edərkən onların necə insanlıq naminə ürək yanğısı ilə yazmalarının şahidi oluruq. Tərəddüdsüz deyərdim ki, Ulduz Qasım da cəmiyyət naminə fədakarlıqla çalışan sənət adamlarındandır. O, fədakar bir yazıçı kimi qırx ilə yaxındır ki, qələmi yerə qoymadan, yaradıcılığa fasilə vermədən yazıb-yaratmaqdadır. Onun çox dəyərli əsərləri son qərinənin ədəbi salnaməsidir deyərdim. Elə, Ulduz Qasımın "Qarabağnamələri" bədii fakt olmaqdan başqa həm də tarixi sənətdir. Qarabağda qiyamət romanı 44-günlük savaşın zəfərini tərənnüm edir. Bu qələbəni təmin edənlərin, şərəfinə yaradılmış çox dəyərli ədəbi abidələrdən biridir. Onun "Solmayan nərgiz"i, "Maral"ı və digər əsərləri oxucular arasında məşhurdur.

Mən yazıçı, Ulduz Qasımı yaxşı tanıyıram deyə bilərəm. Çünki, onun bir neçə kitabını nəşr etmişəm və nəşr etdiyim kitablarına da geniş və əhatəli rəylər yazmışam. Bu həmin rəylər "Kredo" qəzetində oxucuların nəzərinə çatdırılıb. Eləcədə,Ulduz Qasımın həyatı və yaradıcılığını ehtiva edən, maraqlı monoqrafiyaları da çap etmişəm. Əli Rza Xələflinin yazıçının "Vətən dağı" adlı iki cildlik tədqiqat əsəri onun yazıçı fədakarlığının mahiyyətini kifayət qədər açır.

Ulduz Qasım ədəbi mühitdə yaxşı tanınır. Görkəmli söz-sənət sahibləri onun yaradıcılığına xüsusi diqqət yetirirlər. Ulduz Qasımın yaradıcılığı ilə bağlı dövrü mətbuat da dərc olunmuş məqalələrin toplularını da mən nəşr etmişəm, və həmin kitablarada münasibət bildirmişəm. Yazıçının "Maral" romanı mənim xüsusi marağıma səbəb olub. Uzun müddət həmin əsərdə təsvir olunan hadisələrin təsiri altında olmuşam.

İndi, Ulduz Qasımın "Doktor Meşali" romanını nəşrə hazırlayıram. Açığı, yazıçının Azərbaycandan uzaq bir mühit haqqında nə və necə yaza biləcəyi mənim üçün maraqlı idi. düşünürdüm ki, Ulduz Qasım üçün oxunaqlı bir əsər yaratmaq, yeni mövzu və yad mühit haqqında çətin olacaq. Amma, istedad və zəhmət hər şeyi həll edir. "Doktor Meşali" romanı çox maraqla oxunur, özüdə oxunaqlı bir dillə, sadə və anlaşıqlı yazılıb. Müəllif əvvəlcə əsərinin qəhrəmanını oxuculara yaxşı tanıtmaq üçün onun ailə mühitinə diqqəti yönəldir: "Abdulqaffarın ailəsi Qahirənin ortabab məhəlləsində yerləşirdi. Bu da o deməkdi ki, pis yaşamırdılar. Evin ağsaqqalı uzun boylu, qara saçlı, qara qaşlı, qara gözlüydü. Dən düşmüş saqqalı onun üzünə yaraşıq verirdi. Çox danışmağı sevməzdi. Bir sözlə ağırbaşlı kişiydi. Tanıyanlar ona hörmətlə yanaşar, saygı göstərərdilər. İşgüzar, ədalətliydi.

Həyat yoldaşı Züleyxa ağbənizli, orta boyluydu. Mavi gözləri şabalıdı rəngdə qaşı, kipriyi onu ərəblərdən fərqləndirirdi. İlk dəfə görənlər onun hansı millətdən olduğunu soruşmadan keçməzdilər. Züleyxa da ağlım kəsəndən Misirli olduğumuzu eşitmişəm doğmalarımdan, böyüklərimdən deyərdi. Çox mehriban və xeyirxah insandı. Həmişə gücü yetən qədər kasıblara kömək edərdi. Övladlarına çox düşkündü bütün analar kimi...

Evin böyük oğlu Mahmud anasına bəzəyirdi. Çox yaraşıqlı və mavi gözlüydü. Bir il öncə ailə həyatı qurmuşdu. Ayrı yaşayırdı. Atasına kömək edirdi ticarət işlərində".

Görünüdüyü kimi, kiçik bir parçada əsərin təsvir olunduğu məkanı və mühiti yaxşı görürük. Sürətlə nəzərimiz xəyaləndə olsa, uzaq Qahirəyə yönəlir. Buradakı nisbətən imkanlı ailələrdən birinin həyat şəraiti haqqında məlumat aldıq.

Əsərin əsas qəhrəmanın adı Muhamməddir. O, Meşalilər ailəsinin övladıdır. Təbiət etibarı ilə çox yumşaq mehriban insandır, atasına, anasına qarşıda diqqətlidir. İxtisasca həkim olduğu üçün insanları qorumağı, onların sağlamlığı keşiyində durmağı özünə borc bilir. Onun atası, anası üçün həyatın əsas meyarı, pul qazanmaqdır, cəmiyyətdə yer tutmaqdır. Onlar, istəyirlər ki, Muhamməd Meşali varlı ailələrdən birinin qızı ilə evlənsin, hətta belə bir ailəni və qızı da tapıblar. Həmin qızın adı Əsradır. Ata, ana üçün maraqlı deyil ki, Muhamməd Meşali o qızı sevir ya sevmir. Amma, ata-ana tələbləri doktorun idealını dəyişə bilmir. Anasının təhdidlərinə qarşı Meşali özünəxas yumşalıqla, həlimliklə cavab verir: "Muhamməd evə gələn kimi Züleyxa onu danlamağa başlayırdı.

- Oğlum, niyə Əsraya zaman ayırmırsan, onunla bir yerlərə getmirsən? Atan da bundan çox narahatdı. Heç olmasa bazar günü qızıla alış-verişə çıxın.

Oğlan valideyinlərinin məqsədini yaxşı bilirdi. Lakin xətirlərinə dəymək istəmirdi. Anasınısa heç incitmirdi. Bir təhər söz tapıb aradan çıxırdı.

Ana, görürsən də nə qədər işim var. Mən xəstələrimi gözlədə bilmərəm. Elələri var ki, gündə bir neçə dəfə baş çəkməliyəm. Bu insan həyatıdı. Mən and içmişəm universiteti bitirəndə. Sən Əsrayla ilgilən. Zatən hər geyimi, qızılı evə gətirirlər. Mənim dükana getməyimin nə əhəmiyyəti var? Bir də niyə siz bu qədər tələsirsiniz toy üçün. Mən o qızın xarakterini belə əməlli-başlı bilmirəm. Hərdən də fikirləşirəm ki, xasiyyətlərimiz bir-birinə düz gəlmir. Biz başqa-başqa adamlarıq. Necə yaşayacağıq? Siz nədən məni anlamaq istəmirsiniz?. Qoysaydınız mən özüm-özümə uyğun birini seçərdim. Heç bilmirəm bunun axırı nə olacaq?

Züleyxa tez əl-ayağa düşürdü. Oğluna yalvarırdı. Bizi el içində utandırma, deyirdi. Qurbanın olum, sonra atan da səndən üz döndərər. Onun xarakterini bilirsən. Üzü dönməsin, döndüsə heç kim onu yola gətirə bilməz, tərsin biridi. Bir də ki, Əsra yaxşı ailədəndi, oxumuş qız-dı. Niyə belə danışırsan? Bir də səndən belə sözlər eşitməyim. Belə olanda anasının doğrudan da həyacanlıdığını, qorxduğunu hiss edən Muhamməd tez anasını qucaqlayır, onu sakitləşdirdi".

Bu, ziddiyyətin başlanğıcıdır. Bir az da dəqiqləşdirsək müxtəlif dünyagörüşlərinin qarşılaşmasıdır. Bu qarşılaşma da qüvvələr nisbətidə fərqlidir. Bütün maddi imkanlar atanın əlində cəmləşib. Ana da elə, onun cəbhəsindədir. Muhamməd Meşalinin isə yeganə gücü humanizmində insanlara sevgisindədir, həkimlik istedadındadır. Tezliklə həyat göstərir ki, bu təzadlı dünyagörüşü onların həyat şəraitini dəyişməli olacaq. Belə də olur.

Maraqlı bir məqam da diqqəti cəlb edir. Muhamməd Meşalinin nişanlısı, gələcək həyat yoldaşının həyat idealı haqqında düşünmür, onu ancaq qızıl maraqlandırır. Gəzmək, səyahət etmək gənclik kefi sürmək, Əsranın əsas marağıdır.

Beləliklə, klinikada baş verən hadisədən sonra həyat Meşali üçün axarını dəyişir.

Meşali sağlam təbiətli insandır. O, Əsraya qarşı da çox mülayimdir. Ona qarşı münasibətini tarazlamağa çalışır. Hətta, klinikanı satıb, uzaq kasıblar məhəlləsinə köçmək istəyəndə, Əsraya onunla birgə getməyi təklif edir. Təəssüf ki, qız onun düşüncələrinə ruhən çox yaddır.

Yeri gəlmişkən, qeyd edək ki, müxtəlif dünyagörüşlü insanların birgə həyat qurub yaşamaları çox vaxt çətin olur. Hətta faciələrdə baş verir. bizim Azərbaycan xalqının belə bir məsəli var: "Taylı tayını tapmasa, günü ah-vayla keçər". Burada söhbət təhsil fərqindən getmir. Əsas ziddiyyət, həyata, insanlara münasibətdən başlayır. Tərəflərdən biri üçün "kasıb da insandır"- qənaəti əsas idealdır. Digər, tərəf üçün isə öz zümrəsinin tələbləri və ölçüləri var. Maddi imkan, həmin tərf üçün əsas şərtdir.

Doktor Meşali üçün, insanlar arasında sosial fərqin elə bir əhəmiyyəti yoxdur. O, hesab edir ki, hər kəs cəmiyyətin tam hüquqlu üzvüdür. Xüsusilə, həkimlər üçün, gərək fərq olmasın. Həkim, biliyini, bacarığını, can təhlükəsi qarşısında olan hər kəsə əsirgəməməlidir.

Biz, Doktor Meşalini öz mövqeyində sabit-qədəm görürük. O, artıq qəti qərara gəlib. Atasının təminatında olan klinikanı satıb, öz payına düşən vəsaitlə Qahirənin mərkəzindən uzaq, çox ağır durumda, yaşayan insanların, arasına getməyi dəqiqləşdirib. Hətta, orada kiçik bir klinika tikməyidə qərara alıb. Son yır-yığış məqamında Əsranı yanına çağırır və ona məramını açıqlayır: "Səni çağırmağımın səbəbi var. Mən klinikanı satıb, kasıblar məhəlləsinə yerləşmək istəyirəm. Pulsuz, əlacsız uşaqları, adamları müalicə edəcəm. Mənimlə gəlməyə hazırsan?

Qız əvvəlcə qulaqlarına inanmadı. Elə bildi nişanlısı zarafat edir onunla. Lakin, Muhammədin ciddi olduğunu hiss edəndə bomba kimi partladı. Bu nə xəbərdi verirsən mənə? Axı, bu hardan çıxdı?

Sən adlı-sanlı bir həkimsən burda. Mən də buna görə səninlə evlənməyə razı oldum. Bu nə deməkdi indi? Yoxsa alıb-aldatmadı? Mən elə məhəllənin yanından maşınımı belə sürmürəm ki, tozu-torpağı, qoxusu maşınıma hopar. Sən də durub mənə orda yaşamağı təklif edirsən?. Bu nə tərbiyəsizlikdi belə?

Muhamməd Əsranın özündən çıxdığını görüb onu sakitləşdirməyə çalışdı.

Bunu məcbur demirəm. Getmiyə bilərsən. Seçim səninndir. Ancaq, mən bundan sonrakı həyatımı orayla bağlıyacam. Elə əlacsız insanlara, elə uşaqlara kömək edəcəm.

Mən elə indi atama zəng vurub, nişanı pozmasını istəyəcəm. Bir dəqiqə belə dözə bilmərəm.

İxtiyar sahibisən. Mən deyib borcumdan çıxdım.

Sən heç əvvəldən mənimlə evlənmək istəmirdin. Bunu hiss edirdim. İndiyə qədər bir dəfə də olsun məni bir yerə götürmədin. Səhər-səhər zəng vuranda bildim elə bunda bir səbəb var.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

# HƏKİM FƏDAKARLIĞI VƏ YAZIÇI HƏKİMLİYİ

Qız qapını elə çırpdı ki, klinikada hamı bu səsi eşitdi. Ancaq Əsranın kim olduğunu bilən yox idi, yaxşı ki. Yoxsa yeni mövzu olardı bu hadisə". Beləliklə, yollar ayrılır. Və artıq, cəbhələr də məlumdur. Doktor Meşali ata-ana dəstəyindən məhrum olacaq, nişanlısı artıq ondan ayrılıb getdi. Kasıblar məhləsinə gedən Doktor Meşalini heç nə qorxutmur. İnanır ki, getdiyi təzə məkanda da onun kimliyini bilən olacaq. O, arxayındır ki, həmin kasıblar məhəlləsi olan Tanta kəndində də yaxşı adamlar var. O, belə bir yaxşı adamla, elə ilk gündə qarşılaşır. Bu adam Şeyx Tayyibdir. Bir sözlə, onun gəlişi Tanta da mənəvi mühiti tamam dəyişir. Əlindəki cuzi vəsaitlə kiçik bir klinikanı tikdirir. Hətta, özü də fəhləlik edir. Burada, çox zəhmətkeş, hünərli bir qızı ilk gündə görür və onu sevir. Bu qız bütün həyatı boyu ona mənəvi dayaq olur. Nilufər adlı həmin qızın mükəmməl obrazı oxucunun heç vaxt yadından çıxmır. Gələcəkdə Nilufər bütün çətinliklərdə həyat yoldaşını qoruyan bir mələyə çevrilir.

Zənnimcə, Ulduz Qasım bu ailənin timsalında maraqlı bir nümunə yaradır. Çoxları bu ailədən özləri üçün dərs götürə bilər.

Ulduz Qasımın "Doktor Meşali" romanında eyni, etnik kökə malik insanlar arasındakı təzadlardan başqa müxtəlif kökənli və dinli insanların bir-biri ilə ziddiyyətli münasibətləri də əsər boyu diqqəti çəkir.

Müsəlman kəndi olan Tantaya qonşu, xristian dinli kəndin sakinlərinə də bir-biriləri ilə yola getmirlər. Onlar bir-birinə qarşı düşmən münasibətdədirlər. Yazıçı maraqlı problem qoyur; insana sevgisi olan bir kəsin qərəzsiz münasibəti, düşmən tərəfləridə barışdırır. Şeron xristiandır. O, Doktor Meşalini ölümlə hədələyir. Ulduz Qasımın real təsvirləri göstərir ki, insani münasibət olan yerdə nifrət də, qərəz də əriyib gedir, yox olur. Şeronun düşüncəsinə görə, müsəlmandan laqları heç nə eşitmirdi. Keşiş xeyli uşağa baxdı, nəsə oxudu əlindəki xaçı kiçik oğlanın üzərinə qoydu. Və ətrafa baxdı. Muştunun cansız qaldığını gördü. Heç bir dəyişiklik yoxdu. O da doktorun durmadan uşağa tibbi yardım lazım olduğunu deyib qışqırdığını eşitdi.

Şeron, əgər o doktordusa qoy gəlib baxsın oğluna". Beləliklə, Doktor Meşali həm özü ölümdən xilas olur, təhqirdən qurtulur, həm də Şeronun oğlunu ölümdən xilas edir. Daha sonra, Şeronun oğlunu əməliyyat edir. Həyat göstərir ki, insanlığı uca tutanlar son nəticədə qalibdirlər.

Daha bir ziddiyyətli məqamda oxucunun yaddaşından silinmir. Doktor Meşali təkcə Tantada, Qahirədə yox, bütün Avropada artıq məşhurdur. O, sevinir hər kəs ona etibar edir. onun belə məşhurlaşması sevilməsi, vaxtı ilə tələbə yoldaşı olmuş professor, Əbdülrəhmanı qəzəbləndirir. O, Doktor Meşalini məhv etmək üçün yollar axtarır. Hətta günahsız bir uşağı öldürüb, qatil kimi Doktor Meşalini ələ vermək istəyir. O, bununla Doktor Meşalini məhv etmək, onun şöhrətinə sahiblənmək niyyəti güdür. Əlbəttə, bu ədalətsizlik qalib gələ bilməzdi. Doktor Meşali, həyat yoldaşı Nilufər, Tantanın ağsaqqalı, Şeyx Tayyib və digər sadə insanların köməyi ilə cinayətkar yaxalanır. Əbdülrəhman çox hiyləgər insandır. Onun təbiətini yazıçı öz düşüncələri ilə açır: "Əbdülrəhman ürəyindəkiləri açıqlaya bilməzdi. Həm səni sınamaq, həm də mənə doğru məsləhət verməni istədim. Qahirədəki həkimlərin yanına gedə bilməzdim. Sonra məni biyabır edərdilər. Sənin də bu qədər adlı-sanlı olman məni narahat edirdi xeyli zamandı. Ancaq özünə deməsəm də indi gördüm ki, deyilənlər doğrudu. Bir də bu doğruların qarşısını almaq istəyirəm. Həmin illərdə universitetdə hamıdan çox məni tərifləyirdi professorlarımız. İndi sənin kölgəndə qalmışam. Bu cırıq-cındırların, zir-zibillərin arasında belə adsan qazanman məni özümdən çıxarır. Buna son qoymaq lazımdı. Və bunun üçün bu yazıq uşağı da qurban verəcəm deyəsən. Hələ şindən sonra Tantada həyat necə dəyişib. İnsanlar bir-birinə hörmətlə yanaşmağa başlayıblar. Onları kənardan gələnlər, məhz kasıb olduqlarına görə adam hesab etmirdilər. Amma, Doktor Meşalinin sahəsində Tanta demək olar ki, dünyada məşhur olub. Buraya mətbuat işçiləri, qonaqlar gəlir. Doktor Meşalinin iş təcrübəsini öyrənmək istəyirlər. Bütün bunların hamısının başında Nilufər yaxşı bilir ki, Doktor Meşalinin şəxsiyyəti dayanır. Onun şəxiyyəti insanların münasibət ölçülərini dəyişir.

Nilufər, hər cəhətdən sevgiyə layiq olan həyat yoldaşı haqqında sonsuz sevgi düşüncələrinə dair: "Mən ən çox sənin insanlığını sevirəm. Sən insanlıq, mərhəmət müccəsəməsisən. Bizim kimi sadə və əlacsız, toz-torpağı içində yaşayan kasıb insanlara əl uzatdığın üçün, kömək etdiyin üçün, öz şöhrətindən vaz keçdiyin, qurban verdiyin üçün çox istəyirəm səni. Elə gözəl ürək, bəlkə də barmaqla sayacaq qədər insanlarda var. Bunu sənə deməyə hər zaman çəkinirəm. Çox sevirəm səni, Mə-həmməd! Ancaq elə bilirəm, bunu desəm, o hiss yox olar, küləklər sözümü alıb, qovub aparar, məndən uzaqlaşdırar, yadlaşdırar, cansızlaşdırar... Yağmur dəyər o sevgiyə, üşüdər o isti hisslərimi. Qar düşər üstünə, soyuyar, əriyər, yox olar... Düşünürəm, onu dilə gətirsəm qiyməti itər, azalar. Qısqanar onu dağlar, daşlar. Uçan quşlar əlimdən alıb aparar uzaqlara. Onun yeri ürək olmalıdı. Ürək olmalıdı ki, onu orda, öz yuvasında isti saxlasın, qorusun, kimsəyə verməsin. Yuvasından qopanlar yadlaşır, mənasızlaşırlar çox zaman, İstəyirəm, sənin üçün ona sahib çıxsın bu ürək, bu qəlb... Bəlkə də bu, bir qadının kişiyə olan istəyi deyil. Bir insanlığa, bir mərhəmət sahibinə, bir xeyirxah və özündən aşağıda olanlara əl uzadan adama olan sevgidi... Bilmirəm, əzizim, bilmirəm, bircə bunu bilirəm ki, səni çox, həm də lap çox sevirəm...". Bu sevgi, tükənməzdir. Bu sevgi Nilufəri uca ana, Doktor Meşalini isə böyük ata zirvəsinə ucaldır.

Həyat göstərir ki, cəmiyyətin mənəvi nizamını sağlam əqidəli insanlar qoruya bilir. Ədalətli insanlar cəmiyyətin irəliyə doğru inkişafını təmin edirlər.

"Doktor Meşali" romanında zəngin obrazlar aləmi var. Yadda qalan insanlar, yazıçının səmimi münasibəti ilə oxucu yaddaşında yer alır. Oxucu hər kəsə özünün layiq olduğu qiyməti verir.

Əsər bir acı həqiqəti də təsdiq edir. Doktor Meşali əslində Nobel mükafatına təqdim olunmalı idi. Bu barədə Əli Rza Xələfli, zənnimcə, daha dəqiq yazıb: "Doktor Meşali öz sağlığnda dəyərini, qiymətini ala bilməyib. Bu qədər insanlığa doğma olasan, hər kəsə qarşı sonsuz sevgi bəsləyəsən, sevgisizlərə öz sevginlə can verəsən, şərəfli bir ailənin başçısı olasan, ləyaqətli bir qadının sevgilisi, cəfakeş bir ananın həyat yoldaşı olasan, ali mənsəb bir ata kimi özünü təsdiq edəsən... amma, dünya səhiyyə təşkilatının bir ləyaqətli ödülünə layiq görülməyəsən Əlbəttə, bu da Doktor Meşalinin faciəsi idi. Əslində Doktor Meşali uca insanlığı yer kürəsindəki ən üstün mərtəbə hesab edir. O, bu mərtəbəni adi, kasıb, sadə insanlar arasında nadir fədakarlığı ilə qazanıb. O, həqiqətən insanlar arasında nadirliyini təsdiq etmişdi. Ulduz Qaısm Doktor Meşalinin sağlığnda ünvanına verilməyən Nobel mükafatını elə "Doktor Meşali" romanı ilə həqiqətə çevirib. Zənnimcə, bu əsər təkrar-təkrar, ən azı ingilis və ərəb dillərinə tərcümə edilməli, nəşr olunmalıdır". Nəsə əlavə etməyə lüzum görmürəm. İnanıram ki, Doktor Meşalinin xatirəsinə bu əsər layiqli abidə kimi əbədi yaşarlı qazanacaq.

həkim ola bilməz. Müsəlman həkimi ancaq, heyvanlara baxa bilər.

Bu daşlaşmış kinli, qənaəti Doktor Meşalinin səmimi yanaşmaları darmadağın edir. Beləliklə, biz sanki gözlərimizin önündə təkcə insanların yox, bütün həyatın dəyişdiyini müşahidə edirik. Bir təsadüf (əslində bu təsadüf deyil) Şeronun fikrini alt-üst edir: "Şeron doktorla danışarkən birdən evdən bir səs-küy qopdu. Şeronun arvadı Sara qışqırırdı nəysə. Kişi tez tövlənin qapısını bağlayıb evə yüyürdü. Nə olduğunu durmadan soruşurdu həyat yoldaşından.

Qadın da boğula-boğula əlini yerdə uzanmış oğluna uzadıb nəsə deməyə çalışırdı. Şeron tez keşişin arxasınca çobanı göndərdi. Çoban yüyürə-yüyürə gözdən itdi. Tövlənin qapısının deşiyindən onları izləyən Muhamməd başa düşdü ki, Şeronun oğlu xəstələnib. 4-5 yaşında olan oğlanı yerə uzatmışdılar. Özünü saxlaya bilmədi doktor. Qapını var gücüylə döyməyə başladı. Hətta, qışqırırdı. Qapını açın deyirdi, o uşağa kömək lazımdı. Onu xilas edə bilərəm. Ancaq onu eşitmək istəmirdi evin sahibi. Çox keçmədi ki, çoban keşişlə geri döndü. Görünür yaxınlıqdaymış onun olduğu yer. Çoban tövlənin qapısının döyüldüyünü görüb Şerona xəbər verdi. Və doktorun dediklərini ona çatdırdı. Görünür acığına getdi çobanın sözləri:

Kəs səsini, keşişdən artıq nə edə bilər ki, o Muştuya?

Qanmaz, inamsız adam. Bir müsəlman mənim övladımı müalicə edə bilməz. Deyirsən öldürsün oğlumu? Kəs səsini, axmaq...

Əfəndim, onun dediklərin deyirəm.

Kəs səsini, sənə dedim.

Şeronun arvadı Sara özünü itirmişdi. Əllərini açıb dua edirdi. Sanki gözləri heç nə görmür, qubaşına gələcəklərdən xəbərsizsən. Nə Tantada, nə bu kasıb məhəllədə hörmətin qalacaq. Görək nə edəcəksən, necə özünü göstərəcəksən? Ağlına da gəlməz başına gələcəklər. Səni zindana atdırmamış buralardan gedən deyiləm. O ilin buraxılışından həm alim olaraq, həm də istedadlı doktor olaraq mənim adım ucalmalıdı. Çox az qaldı buna. Yoxsa mətbuatlar, radiolar, hətta xarici qəzet, jurnallarda sənin barəndə yazırlar, danışırlar". Təkcə elə bu təsvir göstərir ki, Doktor Meşali necə bir məxluqla qarşılaşmalı olacaq. Təbiidir ki, insan qəddar və qərəzkar olduqca onun zəif tərəflərində tez diqqəti cəlb edir. Doktor Meşali insan psixologiyasını da yaxşı bilir. O, Əbdülrəhmanın gözlərinə baxan kimi onun niyyətini anlayır. Ona görə də ehtiyatı əldən vermir. Beləliklə, bu çətin savaşda Doktor Meşalinin haqqı qalib gəlir.

Bütün hallarda, Doktor Meşali insanların sevgisinə güvənir. Yazıçı, Ulduz Qasım da əsər boyu həqiqi məhəbbəti doğru sevgini də tərənnüm etməkdən yorulmur. Sevgilərin çağladığı yerlərdə insanların ruhu qanadlanır. İnsan ağır zəhmətdən bezmir, usanmır. Burada belə düşünmək olar. Yazıçının qənaəti budur ki, həyatın varlığını təmin edən əsas amillərdən biri də elə sevginin mövcudluğudur. Əsl həyat elə sevgi olan yerdədir.

Nilufərlə, Əsranı müqayisə etmək olar. Əsra, Doktor Meşaliyə necə münasibət bəsləyirdi. O, Doktor Meşalini pul kisəsi kimi təsəvvür edirdi. Onun düşüncəsinə görə həyat, kef çəkməkdən ibarətdir. Bunun üçün pul lazımdır. Pulu isə Doktor Meşali qazanmalıdır. Amma, Nilufər belə düşünmür. O, Doktor Meşalini əsas insani hisslərinə, cəmiyyətə doğmalığına görə sevir.

Nilufər yaxşı görür ki, Doktor Meşalinin gəli-

***19.02.2026***